AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ VERGİTUTMA

BAKI – 2024

# İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri

## İşğaldan azad edilmiş ərazilərin rezidentləri kimlərdir?

İşğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər.

## İşğaldan azad edilmiş ərazilərin rezidentlərinə münasibətdə tətbiq edilən vergi azadolmaları hansılardır?

- **2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində** mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar;

> **Qeyd:** Vergi azadolmaları işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilir.

- ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazilərin rezidentləri tərəfindən siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı **2023-cü il yanvarın 1-dən** etibarən **10 il müddətində** ƏDV-dən azaddır.

> **Qeyd:** Bu azadolma Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada verilmiş təsdiqedici sənəd əsasında tətbiq edilir.

- hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri **2023-cü il yanvarın 1- dən** etibarən **10 il müddətində** vergidən azaddır.

# İşğaldan azad edilmiş ərazilərdə vergi azadolmalarının tətbiqi şərtləri

**İstehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması**

- işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan;
- işğaldan azad edilmiş ərazidə qeyd edilən fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir.

Qeyd edilən azadolma istehsal, o cümlədən emal və ya hasil edilərək işğaldan azad edilmiş ərazi daxilində və ya həmin ərazidən kənara təqdim edilən, habelə Azərbaycan Respublikasının ərazisindən ixrac edilən mallara görə əldə olunan gəlirlərə şamil edilir.

**Topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması**

- işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan;
- malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir.

Mallar (işlər, xidmətlər) işğaldan azad edilmiş ərazidən kənarda fəaliyyət göstərən şəxslərə təqdim edildiyi, o cümlədən Azərbaycan Respublikası ərazisindən ixrac edildiyi halda vergi azadolmaları həmin şəxslərə şamil edilmir.

## Turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələri üzrə vergi azadolması

- işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan;
- işğaldan azad edilmiş ərazidə fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir.

**Nəzərə alın ki...**

Yuxarıda göstərilən fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazilərin rezidentləri:

- İşğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda da (Azərbaycan Respublikası ərazisi daxilində) eyni növ fəaliyyəti həyata keçirdiyi halda vergi azadolmaları həmin şəxslərə şamil edilmir;
- işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənarda digər fəaliyyət növü həyata keçirdiyi halda işğaldan azad edilmiş ərazidə göstərilən fəaliyyətlə həmin ərazilərdən kənarda göstərilən digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

## İşğaldan azad edilmiş ərazilərdə vergi azadolmalarının tətbiq edilmədiyi fəaliyyət növləri və əməliyyatlar:

- maliyyə xidmətlərinin göstərilməsi sahəsində fəaliyyət;
- avtonəqliyyat vasitələri ilə yük daşıma xidmətləri;
- dövlət büdcəsinin vəsaitləri hesabına podratçı (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) tərəfindən malların (işlərin və xidmətlərin) təqdim edilməsi.

**Məlumatınız olsun ki,**

Fiziki şəxs olan istehlakçılar tərəfindən işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödənilən **ƏDV-nin 30 faizi**, nağd qaydada ödənilən **ƏDV-nin 5 faizi** geri qaytarılır.

**Unutmayın ki,**

İşğaldan azad edilmiş ərazinin rezidenti həmin ərazidəki fəaliyyəti ilə bağlı vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulan ümumi qaydada və müddətlərdə vergi orqanına təqdim edir.

# Məcburi dövlət sosial sığorta haqları barədə

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən qeyri-dövlət (yuxarıda qeyd edilən vergi azadolmalarının tətbiq edilmədiyi fəaliyyət növləri və əməliyyatlar istisna olmaqla) sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqqının aşağıdakı hissəsi 01.01.2033-cü il tarixədək dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır, yəni sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının həmin hissələri dövlət büdcəsinin vəsaiti hesabına kompensasiyası məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəyləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən sığortaedənlərə (sığortaolunanlara) əvəzsiz maliyyə vəsaiti şəklində ödənilir:

- muzdlu işdən əldə edilən gəlirlər üzrə sığortaedən tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının:
    - 2023-cü il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək – **100 faizi** miqdarında;
    - 2026-cı il yanvarın 1-dən 2029-cu il yanvarın 1-dək – **80 faizi** miqdarında;
    - 2029-cu il yanvarın 1-dən 2031-ci il yanvarın 1-dək – **60 faizi** miqdarında;
    - 2031-ci il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək – **40 faizi** miqdarında.
- muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunan tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının – **100 faizi**;

- “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” və ya “Fərqlənmə nişanı” əldə etməklə fəaliyyət göstərən fiziki şəxslər, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla, 15 yaşından “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri  tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının – **100 faizi**.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.12.2023-cü il tarixli 445 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması hesabatın təqdim edilmə dövrü bitdiyi tarixdən, habelə “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” və “Fərqlənmə nişanı” əldə etməklə fəaliyyət göstərən fiziki şəxslər üzrə rüb başa çatdıqdan sonra 30 (otuz) gün müddətində dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı “Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş” adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az